AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

UNEC AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
AZ 1001, Bakı, Azərbaycan, İstiqlaliyyət küç. 6 unec@unec.edu.az

10 mart 2021-ci il

№ 010-030-257r/02/2021

Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri
professor Vahid Novruzova

Hörmətli Vahid müəllim!

Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Azərbaycan Respublikası Auditorlar Palatası 25 illik fəaliyyəti ərzində ölkədə iqtisadi resurslardan səmərəli istifadə edilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması, eləcə də maliyyə hesabatlarında şəffaflığın təmin olunmasında əvəzsiz rol oynamaqla, ölkədə dayanıqlı inkişafa öz töhfəsini verməkdədir.

Ötən dövr ərzində Azərbaycanda auditor xidmətinin mütərəqqi dünya təcrübəsinə uyğun şəkildə təşkili, milli audit sisteminin inkişafını təmin edən mükəmməl normativ hüquqi bazanın yaradılması, beynəlxalq tələblərə cavab verən kadrların hazırlanması sahəsində mühüm işlər görülmüşdür. Həyata keçirilmiş məqsədyönlü fəaliyyətin nəticəsidir ki, Azərbaycanda milli audit sistemi bərqərar olmuş, auditor xidmətinin həcmi, əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, şəffaflığın təmin olunmasında, korrupsiyaya qarşı mübarizədə, bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu əhəmiyyətli dərəcədə artmışdır.

Palata dünyanın bir sıra nüfuzlu təşkilatları olan Avropa Mühasiblər və Auditorlar Federasiyası, Sertifikatlı Mühasiblər və Auditorlar Avrasiya Şurası və Beynəlxalq Mühasiblər Federasiyasında ölkəmizi layiqincə təmsil edir.

Sevindirici haldır ki, UNEC və Auditorlar Palatası arasında kadr hazırlığı, maliyyə, mühasibat uçotu və audit sahələrində elmi tədqiqatların aparılması istiqamətində əməkdaşlığımız uğurla davam etdirilir. Bu əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində ölkəmizin inkişafı naminə birgə səylərimizi davam etdirmək əzmindəyik.

Hörmətli Vahid müəllim,

Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi yubileyiniz münasibətilə təbrik edirəm, ölkəmizin iqtisadi qüdrətinin artması və innovasiyalı iqtisadiyyatın qurulması işində yeni-yeni uğurlar arzulayıram!

Hörmətlə,

Rektor prof. Ədalət Muradov